

# Oxşar tarix, ortaq dəyər, qarşılıqlı maraq

## Azərbaycanla Özbəkistanı birləşdirən əsas cəhətlərdir

Azərbaycanın Özbəkistanla iqtisadi əlaqələri illərin sınağından çıxıb. Bu əlaqələrin bünövrəsində hər iki xalqın eyni kökə malik olması və tarixdən gələn qardaşlıq dayanır. Ortaq dilə, mədəniyyətə və tarixə malik Özbəkistanla sıx iqtisadi əməkdaşlıq əlaqələrinin inkişafında Ulu Öndər Heydər Əliyevin və Özbəkistanın sabiq Prezidenti İslam Kərimovun rolu böyük olmuşdur.

Prezident İlham Əliyev çıxışlarının birində hər iki liderin tarixi xidmətlərini yüksək qiymətləndirərək demişdir: "Həm sovet dövründə xalqlarımız arasındakı münasibətlər çox yaxın idi, qardaşlıq zəminində qurulmuşdu. Həm də xüsusilə müstəqillik dövründə Heydər Əliyev və İslam Kərimov - iki ölkənin liderləri ikitərəfli münasibətlərin bugünkü səviyyəyə gəlib çatmasında çox mühüm rol oynamışlar. Yəni bizim dostluğumuzun böyük tarixi kökləri vardır. Ancaq müstəqil ölkələr kimi Özbəkistan və Azərbaycan son illər bu əməkdaşlığı yüksək səviyyəyə qaldırmışlar".

Hazırda həm Azərbaycan, həm də Özbəkistan iqtisadi baxımdan bütün türk dünyasının qüdrətli dövlətləri hesab olunurlar. Nəqliyyat sektoru iki qardaş dövlət və ümumiyyətlə, bütövlükdə türkdilli ölkələr arasında əlaqələrin möhkəmlənməsinə mühüm töhfələr vermək perspektivinə malik istiqamətlərdən biridir. Vacib nəqliyyat marşrutlarının üzərində yerləşən ölkələrimiz bu sahədə fəal əməkdaşlıq edirlər.

Bu gün Azərbaycan-Özbəkistan əlaqələrinin yüksək səviyyəyə çatmasında Prezident İlham Əliyevin və Prezident Şavkat Mirziyoyevin şəxsi münasibətləri də mühüm rol oynayır. Təsadüfi deyil ki, hər iki prezident dövlət səfərləri və rəsmi səfərlərdən əlavə, müxtəlif beynəlxalq tədbirlər çərçivəsində də tez-tez görüşürlər. Şavkat Mirziyoyevin ötən il avqustun 22-23-də Azərbaycana dövlət səfəri iki ölkə arasında münasibətlərin tarixində yeni səhifə açdı. Səfər çərçivəsində imzalanan sənədlər Azərbaycan-Özbəkistan strateji tərəfdaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsinə və çoxşaxəli əməkdaşlığın genişləndirilməsinə xidmət edir. Enerji, regionlararası əməkdaşlıq, sənaye, xüsusilə avtomobil sənayesi, tekstil, kənd təsərrüfatı, nəqliyyat-tranzit, səhiyyə, turizm, humanitar və digər sahələr üzrə əlaqələrin inkişafı hər iki dövlətin iqtisadi əməkdaşlığının gündəliyinə gətirildi. Özbəkistan Prezidentinin erməni işğalından azad edilmiş ərazilərə - Füzuliyə və Şuşaya səfəri isə qardaş ölkənin Azərbaycanın həyata keçirdiyi bərpa-quruculuq işlərinə göstərdiyi marağın, verdiyi dəstəyin göstəricisi oldu.

Bir il əvvəl - avqustun 23-də Füzulidə Özbəkistan dövləti tərəfindən inşa olunan Mirzə Uluqbəy adına 960 nəfərlik 1 nömrəli tam orta məktəbin açılış mərasimində iştirak edən Şavkat Mirziyoyev demişdir: "Bizim böyük Qarabağda əsrlər boyu davam edən birliyimiz var. Babamız Əmir Teymurdan başlayan münasibətlərimiz indi də çox yaxşıdır. Qardaşımın Qələbəsindən sonra iki xalqın böyüklüyü, gələcəkdə də bir-biri ilə dostluğunu davam etdirməsi üçün bir məktəb tikdirmək arzusunda idim. Bu gün arzum gerçəkləşdi".

2023-cü il noyabrın 8-də Prezident İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının 16-cı Zirvə toplantısında iştirak etmək üçün Özbəkistanda səfərdə olarkən əldə edilmiş razılaşmalar Özbəkistanla əlaqələrimizin yeni mərhələdə əsas konturlarını müəyyənləşdirdi. Razılaşmalara ticarət, birgə müəssisələrin yaradılması, tranzit və logistik əlaqələrin yaxşılaşdırılması, birbaşa investisiyaların qoyulması istiqamətində atılan addımlar daxil idi.

Göründüyü kimi, Azərbaycan-Özbəkistan əlaqələri son illər daha sürətlə inkişaf edir. Ciddi investisiyalar qoyulduğu üçün Özbəkistan Mərkəzi Asiyanın ən böyük bazarlarından biri sayılır. Buna görə də qeyri-neft sektorunun inkişafı və investisiya qoyuluşu baxımından ölkəmizin Özbəkistana marağı daha da artıb. Çünki Azərbaycanın bu sahələrdə böyük təcrübəsi var, xüsusən də enerji sektorunda. Ölkəmizin həm neft-qaz, həm də alternativ enerji sahəsində təcrübəsi bütün dünyada qəbul və təqdir olunur. Özbəkistan da öz növbəsində bir çox sahədə - yüngül sənayedə, maşınqayırma sənayesində uğurlu təcrübəyə malikdir. Bu da imkan verir ki, Azərbaycanla Özbəkistan şirkətlərinin və müəssisələrinin birgə fəaliyyəti təmin edilsin. Bir faktı da xatırladaq: 2022-ci ildə SOCAR ilə "Uzbekneftegaz" Səhmdar Cəmiyyəti arasında əməkdaşlığın genişləndirilməsinə dair imzalanan yol xəritəsi neft-qaz sahəsində birgə layihələrin reallaşdırılması, neft emalı, neft-kimya sahəsində əməkdaşlıq, təcrübə mübadilələrinin aparılması və bu kimi digər önəmli istiqamətləri əhatə edir.

Azərbaycanın Özbəkistanla ilbəil möhkəmlənən əməkdaşlığı həm ölkələrimizin və xalqlarımızın, həm də bütün türk dünyasının inkişafına əhəmiyyətli töhfələr verməkdədir. Bunu indiyədək hər iki dövlət arasında imzalanan 170-dən çox sənəd, o cümlədən strateji tərəfdaşlığın genişlənməsi və hərtərəfli əməkdaşlığın möhkəmlənməsinə dair qəbul olunan bəyannamə də təsdiq edir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*